**Bakıda fəaliyyət göstərən restoranda nöqsanların aşkarlanmasına dair məlumat**

**(29 avqust 2024)**

Bakı şəhəri, Xətai rayonu, G.Şıxlinski küçəsində fəaliyyət göstərən, fiziki şəxs Bağırov Ruhiddin Nadir oğluna məxsus "Şahbuz" restoranında Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları plandankənar yoxlama keçirib.

Baxış zamanı müəssisənin qida təhlükəsizliyi qeydiyyatına alınmadan fəaliyyət göstərdiyi müəyyən olunub. Həmçinin müəssisədə mal qonşuluğu prinsipinin pozulduğu, temperaturun monitorinq və qeydiyyatının aparılmadığı, mexaniki havalandırma sisteminin quraşdırılmadığı, qida məhsullarının yuyulması üçün ayrıca yuma çanağının təşkil edilmədiyi, müvafiq təmizlik işlərinin aparılmadığı, işçi heyətin ilkin və dövri tibbi müayinədən keçmədiyi, xüsusi sanitar geyimlə və fərdi mühafizə vasitələri ilə təmin edilmədiyi və gigiyenik təlimlərə cəlb olunmadığı və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq fiziki şəxs barəsində inzibati protokol tərtib edilib, müəssisədə işlərin görülməsi və xidmətlərin göstərilməsinin dayandırılması ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqinə dair qərar qəbul olunub.